# ŞƏRƏFLİ ÖMÜR YOLU

Minaxanım BABAYEVA

*"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir"*

***Heydər Əliyev***

Həyat yolunda qarşılaşdığımız insanlar müəyyən mənada sürdüyün ömür yolunda sənə bir örnəkdir. Təbii ki, örnək dediyimiz ideal obraz hər adama qismət olmur. Tələbəlik illərində və hətta ondan öncə tanıdığım Ülviyyə xanım həyat yolumda mənim üçün ideal obraz olub desəm yanılmaram. Onun səsini ilk növbədə telefon vasitəsi ilə eşitmişdim, daha sonra isə onu canlı görmək və onun tələbəsi olmaq mənə də nəsib oldu. İlk dərs günümdə təəccüb dolu simam ilə Ülviyyə xanıma baxırdım. Bu qədər informasiyanı bilmək və bunu qarşındakı insana ötümək sevgisi məni heyrətə gətirmişdir ki, o gün dünyanın ən xoşbəxt insanı kimi özümü hiss edirdim. Anam hər zaman Ülviyyə xanımın çox bilikli, savadlı və gözəl insan olduğunu deyirdi, amma bunu öz gözlərimlə, gənc, 17 yaşımda görməm məni əsl insanlıq nümunəsi ilə qarşılaşmağıma səbəb oldu. Ülviyyə xanım elə bir kateqoriyaya məxsus insandır ki, o, hər zaman sənə əlini uzatmağa, sənə kömək etməyə hazırdır.



O, elə insanlardandır ki, səni hər zaman başa düşəcək və anlayacaq və əgər sən heç haqlı olmasan belə o səni doğru - düzgün yola istiqamətləndirəcək, sənə yol göstərəcək. Həyat dəyişir, dəyərlər dəyişir, insanların ətraf aləmə olan münasibəti, insanlar arasında münasibətlər dəyişir, lakin, yüksək mənəvi keyfiyyətlərə malik çox az insan - əsl şəxsiyyətlər var ki, sadalanan keyfiyyətləri itirmir. Həmin şəxsiyyətlərdən də biri Ülviyyə xanımdır. Ülviyyə xanımın ünvanına yalnız xoş sözlər aiddir. Bu gün çox xoşbəxtəm, çünki, mənim Müəllimim məhz Ülviyyə xanım İmanova olub və hələ də olmaqdadır. Çünki, hər dəfə onunla görüşdüyümüz zaman ondan nəsə öyrənirəm. Zəngin erudisiyaya malik olan insan ilə ünsiyyət hər zaman insanı mənəvi cəhətdən qidalandırır.

Oktyabrın 25-i Azərbaycan Respublikasının Əməkdar Müəllimi, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, "Musiqi tarixi" kafedrasının müdiri bizim sevimli Ülviyyə xanım İmanovanın 75 illik yubileyi tamam olur. Bu münasibətlə Ülviyyə xanımı ürəkdən təbrik etmək istəyir, eləcə də onun yaradıcılıq fəaliyyəti və insani keyfiyyətləri haqqında fikirlərimi bölüşmək istərdim.

Ülviyyə İsmayıl qızı İmanova 1944 - cü ildə oktyabrın 25-də Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. İncəsənətə, xüsusən də musiqiyə olan həvəs uşaq yaşlarından özünü büruzə vermişdir. Odur ki, məktəbi bitirdikdən sonra Ülviyyə xanım 1958-1962-ci illərdə A.Zeynallı adına Bakı musiqi texnikumunun (indiki AMK nəzdində Musiqi Kolleci) nəzəriyyə şöbəsində təhsil alır və buranı fərqlənmə diplomu ilə bitirərək 1962-1967-ci illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) "Musiqi tarixi-nəzəriyyəsi" fakültəsinə daxil olur və buranı müəllim, musiqişünas, lektor ixtisaslan üzrə fərqlənmə diplomu ilə bitirir. Ülviyyə xanım Konservatoriyada təhsil aldığı illərdən çox gözəl xatirələrlə tələbələri ilə bölüşür. Öz müəllimlərini böyük minnətdarlıq hissi ilə







yad edir. Onlardan dərin biliklər aldığını, hər zaman axtarışda olduğunu, öyrənmək istəyini və müəllimlərin ona qarşı olan münasibətini söyləyir.

Qeyd etmək lazımdır ki, 50 - 60-cı illərdə Azərbaycan Dövlət Konservatoriyasında çox güclü professor müəllim heyəti çalışırdı. B.Yermalayf (ciddi və sərbəst polifoniya), D.Danilov (musiqi tarixi), S.Hacıbəyov (orkestr yazısı), Q.Burşteyn (partitura oxunuşu), İ.Əfəndiyeva (rus xalq yaradıcılığı) kimi müəllimlərdən dərs alan Ülviyyə xanım məntiqi düşüncəsi və zəngin mütaliəsi ilə müəllimlərinin rəğbətini qazanmışdır və sadalanan bacanq və istedad müəllimlərin də diqqətindən yayınmırdı. O, tanınmış musiqişünas alim İ. Abezqauzun rəhbərliyi altında "Q.Qarayevin yaradıcılığında neoklassisizm problemləri" adlı buraxılış işini təqdim edərək ən yüksək qiymətə layiq görülmüşdür. Bununla da o, ilk dəfə olaraq Azərbaycan musiqisində neoklassisizm probleminə müraciət etmişdir.

Q.Qarayev yaradıcılığına və musiqisinə olan maraq Ülviyyə xanımın sənətşünaslıq dissertasiyasında da öz əksini tapır. Ülviyyə xanım "XX əsrin klassisizmi və Qara Qarayevin musiqisi" adlı sənətşünaslıq dissertasiyasını (elmi rəhbər: sənətşünaslıq namizədi, dosent İ.V.Abezqauz) 1990-cı ildə Daşkənd şəhərində uğurla müdafiə edib. Q.Qarayev yaradıcılığına olan dərin hörmət və ehtiram hissi Ü.İmanovanın elmi fəaliyyətində qırmızı xətt kimi keçir. Ülviyyə xanım qeyd edir ki, "Q.Qarayev müasir mərhələdə Azərbaycan musiqisinin inkişafını müəyyənləşdirib və onun bədii və professional səviyyəsini təmin edib".

Ülviyyə xanım professional musiqişünas - alim kimi musiqi mədəniyyətimizlə bağlı maraqlı mövzulara müraciət edir və gərgin elmi axtarışların bəhrəsi olan tədqiqat işləri ilə musiqi sənətinin inkişafında böyük rol oynayır. O, seçdiyi sənətə sədaqət və məhəbbət ilə bağlıdır.

Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (indiki Ü.Hacıbəyli adına BMA) bitirdikdən sonra Ü.İmanova "Musiqi tarixi" kafedrasında pedaqoji fəaliyyətə başlayır və bu günə qədər bu şərəfli peşəsinə sadiq qalaraq neçə-neçə musiqişünaslar nəsli yetişdirir. Qırx beş ildən artıqdır ki, o, BMA-da dərs deyir. Təkrarolunmaz fikirləri, danışıq nitqinin axıcılığı, məntiqi ardıcıllığı ilə seçilən İmanova mühazirəsi hər bir tələbə üçün məktəbdir. O, sanki, informasiyanı öz yaradıcı süzgəcindən keçirərək qarşısındakı hömsöhbətinə ötürür. O, biliyini elə dolğun, keyfiyyətli, samballı təqdim edir ki, ondan yan keçmək mümkün olmur. Çox yaxşı xatırlayıram ki, buraxılış işimdə Xəyyam Mirzəzadənin "Mirzənin söylədikləri" adlı 6 simfonik pyesini təhlil edirdik. Buraxılış işində Q.Qarayev və X.Mirzəzadə münasibətləri haqqında kiçik bir abzas verilmişdir. Q.Qarayevin öz tələbələrinə qarşı daim tələbkar, qayğıkeş olması, öz bilikləri ilə onlarla hər zaman bölüşməyə hazır olması haqqında qeyd olunmuşdur. Təbii ki, bu sətirlər Ülviyyə xanımdan irəli gəlmişdir. Öz növbəmdə bu fikirlərin dərinliyinə vararaq bütün bu keyfiyyətlərin onda cəmləşdiyini müşahidə edirdim. Ülviyyə xanım çox yüksək keyfiyyətlərə sahib olan bir şəxsiyyətdir. Təbii ki, bir məqalə onun insani keyfiyyətlərini sadalamaq ilə bitməz...

Ülviyyə xanım hər zaman öz dəstxətti ilə seçilən, fikirləri ilə hər zaman auditoriyanın diqqətini cəlb etməyə qadir olan musiqişünasdır. O, gözəl və məntiqli düşünən, erudisiyalı musiqiçidir, həm rus həm də öz ana dilində parlaq mühazirələri ilə çıxış edərək nəinki tələbələrin, eləcə də, öz kolleqalarının, BMA nın rəhbərliyinin rəğbətini və hörmətini qazanıb. Ülviyyə xanım məhz o müəllimlərdəndir ki, onu həyat əqidəsinin başında peşəsinə olan professional yanaşma durur. O, tələbələri ilə biliyini bölüşməyə hər zaman hazırdır. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Könül xanım Nəsirova xatirələri ilə bölüşərək qeyd edir ki, "Xarici musiqi tarixi fənni üzrə ilk dərs günündə bütün qrup mühazirədə təəccüb içində idik... bu qədər informasiya və ən əsası isə onun insani keyfiyyətləri hamımıza müsbət təsir göstərmişdir. O, əsl professionaldır, o ilk mühazirədən bizi musiqi tarixinin ən dərin köklərinə qərq etməyi bacardı və maraq dairəmizi genişləndirdi. Biz həmin o andan hiss etdik ki, qarşımızda öz sənətini sevən Müəllim dayanıb və öz bilikləri ilə bölüşməyə hər zaman hazırdır".

Ü.İmanova musiqişünaslıq elminin inkişafında mühüm rol oynayır. Pedaqoji fəaliyyəti ilə bağlı olaraq onun sinfini 70-dən çox musiqişünas bitirmişdir ki, hal hazırda onlar respublikanın müxtəlif musiqi məktəblərində, eləcə də BMA-da onunla çiyin-çiyinə çalışırlar.

Ülviyyə xanımın sinfini bitirən tələbələr maraqlı mövzulara müraciət edirlər. Elmi rəhbər olaraq o, çox aktual və az işlənən mövzuları tədqiqat obyekti kimi təqdim edir. Bu yaxınlarda Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının IV kurs tələbəsi Qəhrəmanova Aygün "İsmayıl Hacıbəyovun "Memorial" kantatası" adlı buraxılış işini, Bakı Musiqi Akademiyasının magistr pilləsinin II kurs tələbələri Fidan Rəhimli "Q.Qarayev, D.Şostakoviç, S.Prokofyevin I simfoniyalarının müqayisəli təhlilinə dair", Könül Şükürova "Müasir televiziyada musiqi problemləri" kimi mövzuları təqdim edərək yüksək qiymətə layiq görülmüşdürlər. Buraxılış və magistr dissertasiyalarının adlarından artıq bəllidir ki, Ü.İmanova hər zaman çox maraqlı, aktual, heç yerdə təhlil olunmayan və ən əsası əsl peşəkar kimi müqayisəli təhlillərə, paralellərə üstünlük verir. Odur ki, Ü.İmanovanın rəhbərlik etdiyi bütün tədqiqat işləri yüksək qiymətləndirilir. Bununla yanaşı qeyd etmək çox vacibdir ki, Ülviyyə xanım nəinki buraxılış və magistr dissertasiyalarına, o, eləcə də sənətşünaslıq üzrə dissertasiya işlərinə də rəhbərlik edir. Bu illər ərzində fəlsəfə doktoru adını qazanmaq üçün Ü.İmanovanın rəhbərliyi altında K.Ələsgərlinin "R.Həsənovanın əsərlərinin üslub xüsusiyyətləri", İ.Hüseynovanın "Azərbaycan musiqi incəsənətinin inkişafında rus-azərbaycan musiqi-mədəni əlaqələrin rolu", N.İsgəndərovanın "Bəstəkar İsmayıl Hacıbəyovun yaradıcılığına qərb avropa neoklassisizminin təsiri", K.Xankişiyevanın "M.Quliyevin simfonik təfəkkürünün xüsusiyyətləri", Y.Kuxmazovanın "Azərbaycan bəstəkarlarının yaradıcılığında miniatür xor

janrının təkamülü" M.Babayevanın "Azər Dadaşovun kamera musiqisinin üslub xüsusiyyətləri", A.Növrəslinin "Müasir Azərbaycan kontekstində Aqşin Əlizadənin üslub xüsusiyyətləri" adlı dissertasiya işlərinin adlarını qeyd etmək olar. Bu tədqiqat işlərində elmin müxtəlif istiqamətlərində yeni fikirlər irəli sürülmüş, onlara elmi baxımdan obyektiv qiymət verilmişdir. Təbii ki, bu işlərin uğur qazanmasında və layiqli yer tutmasında Ü.İmanovanın böyük və əvəzsiz rolu vardır. Mövzunun seçilməsi, araşdırılması, təhlil prosesində aparılan tədqiqat zamanı Ülviyyə xanım hər zaman öz köməyini əsirgəmir.

Zəngin və dolğun yaradıcılıq yolu keçən Ülviyyə xanımın elmi pedaqoji fəaliyyəti şərəfli ömrün təzahürüdür. O, bütün gücü ilə Azərbaycan musiqişünaslığının inkişafına xidmət edir.

1993-cü ildən Ülviyyə xanım BMA-nın "Musiqi tarixi" kafedrasının rəhbəri vəzifəsində çalışır. Öz işini yaxşı bilən və bacarıqla yerinə yetirən Ülviyyə xanım ənənələrə sadiq qalaraq kafedranın bütün professor müəllim heyətinə xüsusi qayğı və nəvazişlə yanaşır. "Musiqi tarixi" kafedrasını onsuz təsəvvür etmək mümkün deyil, çünki, kafedranın hər bir işində Ülviyyə xanım öz geniş və həssas qəlbi ilə hərəkət edir.

Elmi fəaliyyəti ilə bağlı olaraq qeyd etmək lazımdır ki, Ü.İmanova bir sıra elmi məqalələrin, tədris proqramlarının, metodik tövsiyyələrin müəllifidir, eləcə də BMA - nın müəllimləri tərəfindən hazırlanan monoqrafiya və məqalələr toplusunda elmi redaktor, seminar və konfranslarda, dissertasiya müdafiələrində parlaq və yaddaqalan çıxışları ilə dinləyici kütləsinin diqqətini cəlb edir.

Ülviyyə xanım İmanova çox ziyalı, nəcib, səmimi, sadə, təvazökar, xeyirxah bir insandır. O, hər zaman dürüstlüyü, düzgünlüyü, obyektivliyi hər şeydən üstün hesab edir. Onun insani keyfiyyətləri, təbiətinə xas olan alicənablıq bir çox insanlara nümunə ola bilər. Onun çox həssas bir qəlbi var... Gördüyü bütün işlərdə onun iti və rasional düşüncəsi, parlaq zəkası, fenomenal yaddaşı və həssas, dərin hissləri ehtiva edən qəlbi özünü büruzə verir.

Hər insan bir ömür yaşayır. Öz adına layiq, özünəməxsus ömür. Adı kimi ülvilik onun bütün qəlbini bürüyüb. Məhz bu ülvi hisslərdir ki, qarşılaşdığı hər bir həyat axınında ona yol göstərib və bu yolu Ülviyyə xanım möhkəm iradə və sevgi hissi ilə, sədaqətlə, inamla, cəsarətli addımlarla, yorulmadan çalışmaqla, həyat yolunu keçir.

Ülviyyə xanım! Sizi ürəkdən təbrik edir, Sizə uca Allahdan möhkəm can sağlığı, uzun ömür arzulayıram. Həyatınızda hər şey qoy ürəyinizcə olsun.